Ədalət.-2016.-4 noyabr.-S.4.

# Hacı Aleksey

(Esse)

Yaşlı nəsil elə hey, yeri düşdü-düşmədi ötənləri ürək ağrısıyla yenidən yaşayır, bu günün həyat gerçəkliyini, ələlxüsus mənəvi dəyərlərdə baş verən çatları və bu çatlarla hər addımbaşı qarşılaşmaları həzm edə bilmir, tez-tez harda oldu, yeri düşdü-düşmədi, hirslənir, gəncliyi az qala topa tutur. Belə olmaz, əzizlərim, hamını günahkar bilməzlər. Ədəb-ərkanlı, böyüyü böyük tutan, həmişə hörmət-izzət, ehtiram gördüyüm gənc dostlarımın xətrini çox istəyirəm. Biri elə İlham. Qarabağ əlilidir, "Oka"sı var, həmişə mənim qulluğumdadı... Srağagün telefon açır:

-Sabah evdə gözlə məni.

-Xeyir ola?

-Qonşu rayona yasa getməliyəm... Əsgər dostumun atası rəhmətə gedib... Sən də mənimlə olmalısan.

-Baş üstə, İlham...

Yol boyu o, məni məlumatlandırır. Deyir:

-Sədaqətli dostumdu Rizvan. Ötən il ad günümə gəlmişdi, toğlu gətirmişdi. Biz Qarabağda əsgər yoldaşı olmuşuq. Ağdamda sol dizindən aşağı minaya düşdü, protezlə gəzir... Tərəkəmədi onlar, tüpürdüklərini yalamazlar... yalan-palan sözləri yoxdu.

Tərəkəmələr çöl-bayır adamlarıdı və onların qədim adət-ənənələrə söykənən, özlərinə məxsus yaşam tərzi var... Mal-qara, qoyun-quzu sürülərinin ucu-bucağı görünməz. Ağartıdan çox istifadə edirlər, teksun-meksun bilməzlər. Nehrə çalxayıb, kərə yağı, şit şor, dələmə düzəldirlər. Bazarlarda qoyun südündən düzəldilən, ətri, dadı-tamı can dərmanı olan motal pendirləri baha qiymətə satılır... Qadınları at minib çapanda, ağzın açıla qalar. Toylarında uşaqlı-böyüklü hamı qədim "Tərəkəmə" havasını sevə-sevə oynayır.

Böyük-kiçik yerini gözləyən əxlaq, mərifət əhlidirlər. Gəlin qayınana yanında döşü-başı açıq oturub nahar eləməz, ucadan gülməz... Böyüyün sözü qanundu hamı üçün. Ağsaqqalın xeyir-dua verib, evləndirdiyi cavan ailələrdə boşanmaları xəyalına gətirmə... Tərəkəməliyə haçansa hörmətin keçibmi, arxayın ol, unutmayacaq, gec-tez əvəzini qaytaracaq.

Yalan, böhtan, riya bilməzlər, onu aldatdınmı, arxa çevirəcək, üz tutmayacaq bir də sənə, əqidəli, məsləkli dostluqları var... Dost yolunda can əsirgəməzlər.

Həddi keçməmək şərtilə yamanca zarafatcıldırlar, güllə, lağla, rişxəndlə bir-birlərinə sataşarlarr.

Farmaşlarında əllə toxunan, görüntülü, yaraşıqlı, xoş əhval yaradan xalça, kilim, palaz olur.

***

Yas mərasiminə çox adam - qohumlar, dostlar, qonşular cəm olmuşdu. Məndən bir az aralı İlham Rizvanla yanaşı əyləşmişdi. Yəqin ki, ona təsəlli verir, səbirli olmağı diləyirdi. Molla ehkamçı deyildi. Hədisləri bir-birinə bənd eləyib, gələnləri qorxu, vahimə içərisində saxlamaq istəmir, müasir həyatla həmahəng olan moizə eləyirdi:

-Allah sənin qəlbində olmalıdır...

-Əməl, xeyirxahlıq hər cür ibadətdən üstündür... Adəm övladı şəriət, təriqət, mərifət mərhələsini keçib, həqiqətə yetməlidir...

Yanımda əyləşən nurani birisinə astaca pıçıldadım:

-Savadlı, ürfan əhli olan mollanız var...

-Qonşu kənddəndi Hacı Aleksey...

-Nə dediniz?

-Hə, hə, Alekseydi. Ötən il Həcc ziyarətində olub...

Heyrətləndim:

-Bu necə addı? Bax ey, gözəl, nurani çöhrəli birisi. Adı isə...

Geri dönürük. Xəyal məni uzaqlara aparır. Ötənlər yaddaş cədvəlimdən boy verir. İndiki gəncliyin inanmaq istəmədiyi, lağa qoyduğu, "keçmiş tarixdə qaldı" söyləyib, unutqan olmayaq, çünki zəmanənin sürprizləri az olmayıb... Sovet dönəmi dünəndi, srağagündü, düşüncəsiylə qayıdaq ötən əsrə.

Ölkədə zəhmətkeşlərin zərbəçi hərəkatı geniş vüsət alıb: şəhərdə, kənddə sosializm yarışları, bir-birinə çatmaq və ötmək kimi ənənəvi, yuxarıdan körüklənən, orden-medalla həvəsləndirilən qabaqcıllar gecəni gündüzə qatıb işləyir, ölkəyə daha çox, rekord həcmdə məhsul verirlər. Milli ruhlu dövlət xadimi, şair-dramaturq Şıxəli Qurbanovun sözlərinə bəstələnən, dəbdə olan bir mahnıdan bir beyt yaddaşımdan boy verir: "Cavanların, qocaların bir arzusu, diləyi var: ölkəyə bol pambıq verək". Xalq şairi S.Vurğunun pambıqçı Bəsti Bağırova ilə ekskovatorçu Sarvan Salmanovun yarışmasından bəhs edən "Muğan", N. Xəzrinin sürücü-mexannik Sevil Qazıyeva haqqında "Günəşin bacısı" poemalarını niyə unudaq. Yüzlərlə belə sənət əsərləri hələ yaddaşlardan silinməyib...

...Hərdənbir mərkəzi küçələrdə qarşılaşırıq. O, məni qəribə baxışlarla süzür, mən onu. Bir-birimizin sağlamlıq durumumuzu 3-4 cümləylə soruşuruq və ötüb keçirik. Yəqin ki, hər ikimizin könül dünyamızda ötənlər canlanır, dərindən köks ötürür, ah çəkir və nostalji xəstəliyimiz bizi keçmişə qaytarır. Bilirsiniz kim haqqında öz açıram? Gülsürə Rüstəmova! Keçmiş S.Vurğun adına kolxozun keçmiş pambıqçılıq briqadiri. Arıq çəlimsiz gəlin idi. Yeriyəndə əsib titrəməyən sinəsində göz qamaşdıran, rəngbərəng orden və medalları bir-birinə toxunub cingildəyirdi...

40 il bundan əvvəl əldə etdiyi uğurları respublikaya səs salmışdı. Briqadanın hələ indi də sökülüb-dağılmayan düşərgəsində çal-çağır.

-Bakıdan konsert briqadası gəlmişdir. Əsl bayram ovqatı. Bəstəkar Ramiz Mirişli, şair Fikrət Qoca, xalq artisti Elmira Rəhimova əmək qəhrəmanına həsr etdikləri "Gülsurə" mahnısının mətnini təqdim etdilər. Çox şirin, lirik, oynaq mahnını ustalıqla ifa etdi Elmira xanım.

(Sözarası, onu dilə gətirək ki, indi oxuyub-çalanlar sırasında, telegüzgülərdə görünmür. E.Rəhimova. Unudulub o böyük sənətkar. Görünür, şadlıq saraylarına, toylara getməyi özünə sığışdırmır. Pulun, adamın yoxsa, kim səni yada salar?

Elmira xanım Hindistanda musiqi təhsili almışdı, hind mahnılarının əvəzedilməz ifaçısı idi. O, klassik bəstəkarlarımızın 100-ə yaxın mahnısını da oxumuşdur.)

Bəsdi yetər! Vəfalı qələmim xəyallarımı ağ kağıza nəqş etməkdən, deyəsən, zövq alır... Bir daha mən keçmişi tüpürcək yağışına tutanlara çatdırmaq istəyirəm ki, belə olmaz, əzizlərim, keçmiş bizim ata-babalarımızdır və biz onlara hörmətlə-izzətlə saygı göstərməliyik...

***

Qayıdıram, bir saat bundan öncə olduğumuz yas mərasiminə. Molla kim idi? Hacı Aleksey! Hacını başa düşdük. O, mömin bəndə gedib Həcc ziyarətinə və olub Hacı (İndi məmləkətimizdə yüzlərlə, minlərlə Məşhədi, Kərbəlayi, Hacı var. Çox, yox, 150-200 manat pulun olsa, gedirsən o tayda İmam Rzanın qəbrini ziyarət eləyib, qayıdırsan bu taya. Buyur, buyur, Məşhədi, keç, yuxarı başa).

Yuxarıda qeyd etdiyimiz kimi, zəhmətkeşlərin zərbəçi hərəkatının öncüllərindən biri olub Aleksey Staxanov. Kömür mədənində şaxtaçı işləmişdir. O, 1935-ci ildə iki nəfər dostuyla bir növbədə normadan 14 dəfə çox-7 tona qarşı 102 ton kömür çıxararaq bütün ölkəyə səs salmışdır. Hər yerdə sənaye və kənd təsərrüfatı işçiləri onun ardıcılı olmaq uğrunda yarışı genişləndirmişlər.

O, şaxtaçı çoxdan vəfat eləyib. Bizim soydaşımız isə Allah adamıdı, təqva yolunu tutmuş işıqlı, nurlu birisidi. Məzmunlu, heyranedici, məntiqli söz-söhbətilə yas təziyyəsinə gələnləri məftun eləyir, hamını saf, pak, xeyirxah əməllərə səsləyir.

Adına görə utanc hissi keçirməməlidir ki, işıqlı dünyaya gələndə "oğlumuz oub" deyə sevinən valideynlər ona ölkədə məşhur olan Aleksey adını qoymuşdur. Əslində heç ata-ananın da ruhunu narahat eləməyə dəyməz. Hər dövrün hökmü-zamanı olur... 40-50-ci illərdə Stalin repressiyası, nahaq qan-qada, həbslər, Sibir katorqası, güllələnmə... hələ tarixin silinməz yaddaşındadır. İnsanların bu gündən sağ-salamat sabaha çıxmaq ümidi yox idi. Bir də gördün qara maşın gəldi qapına, bir satqının, paxıl qonşunun danosu əsasında ailənə də səhih məlumat vermədən səni apardı gedər-gəlməzə... O vaxt "mən dövlətə, partiyaya, hansı yolla sədaqətli olum" düşüncəsi hakim kəsilmişdi hər kəsə. Qorxu və vahimədən yaxa qurtarmaq məqsədilə çoxu soykökündəki "bəy"i, "xan"ı atıb tullayırdı bir tərəfə və övladına rus adı qoyurdu.

Qız adları: Şura, Melis, Svetlana, Venera, Mariya, Zinaida (Zina)

Oğlan adları: İnqilab, Kombayn, Traktor, Aleksey, Alik, Bolşevik, Telman...

Hələ təxəllüslərə baxın:

Şıxlinski, Şəkinskaya, Şuşinski, Ərəblinski, Talşınski.

Lerik rayonunda böyük qardaş oğluna ad qoyub: Vilen, Kiçik qardaş lap korun gözündən vurub: - balasını eləyib Şaumyan... Köçüblər Biləsuvara. Vilen hələ yaşayır, yaşıl əbalı, qırmızı saqqallı mömün kişidi, mollalıq eləyir.

Şaumyan tədarük kontorunda xəzinadar idi. Adını dəyişdirmişdi, olmuşdu Mərhəmət. Hərdən tay-tuşları sataşır, onu cırnadırlar: "Necəsən, əyə, Şaumyan?"

Bir xatirə yarpağı:

Rayon qəzetində şöbə müdiri işləyə-işləyə məhkəmədə xalq icraçısıyam, işə baxırıq.

Hakim Əmir Abbasov:

-Söz verilir müttəhim Parijə...

-Söz verilir zərərçəkmiş Tovarişə...

Və məlum olur ki, dalaşıblar pambıq tarlasında. Böyük qardaş Parij kiçik qardaş Tovarişin başını yarıb. Düşüblər məhkəməyə. O biri iclasçı Mariya Seyfullayeva asta-asta pıçıldayır mənə:

-Sən Allah bunların adına bax: Parij, Tovariş. Mən də sataşıram ona:

-Bəs sənin adın nədi, ay müəllimə? Mariya!.. Bizim addı?

-Yox, yox, sən düz deyirsən. Atam kolxoz sədri imiş. Mənə Mariya adını qoyub ki, ay rus hökuməti səni gör necə sevirəm.

...Evə gəlirəm. Küçəmizdə oğlan uşaqları-mən onları çox sevirəm-futbol oynamaq istəyirlər. Nisbətən böyüyü balacaya bərk-bərk tapşırır:

-Ədə Əriş, qapıda möhkəm dayan ha! Ora-bura dovurma...

Nə, Əriş, bu necə addı? Əl eləyirəm, yığışırlar ətrafıma. Tuturam o uşağın qolundan, göyçək baladı. Soruşuram:

-Bunun adı Ərişdir?

Cavab verirlər:

-Yox ey, kağızda əsl adı Ərdoğandı. Biz ona Əriş deyirik.

P.S. Siz Allah rastlaşanda Hacı Alekseyə adıyla müraciət eləməyin. Sadəcə Hacı deyib kef-əhvalını soruşun...

**Əlibala Rəhimov,**
**publisist, filoloq**
**"Qızıl qələm" mükafatı laureatı,**
**Biləsuvar rayonu**